

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 130 (23.772)

*20 iyul 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel birgə işçi nahar ediblər.

Görüşdə Azərbaycan-Avropa İttifaqı siyasi əlaqələrindən məmnunluq ifadə olunub, ticarət əlaqələri, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizi və nəqliyyat sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Cənubi Qafqazda əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı Şarl Mişelə azad edilmiş torpaqlarda gedən işlərlə bağlı məlumat verib, postkonflikt vəziyyət barədə danışılıb.

İyulun 18-də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı olub. Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel əvvəlcə mətbuata bəyanatlarla çıxış ediblər. Sonra jurnalistlərin sualları cavablandırılıb. Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab təqdim edib.

## Q.V.Əliyevə "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə Qasım Vəli oğlu Əliyevə "Əməkdar hüquqşünas" fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 iyul 2021-ci il*

## Böyük qurtuluşa Vətəndən başlanan yol

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin:* ***"Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətini qəlbində yaşadır və yaşadacaqdır"*** *qənaəti bəhs olunan dövrə verilən ən dəqiq qiymətdir. Burada Naxçıvan amilinin böyük yeri var.*



Bu, bir faktdır ki, günü-gündən müasirləşən, gəncləşən, hər bir naxçıvanlının qürur duyduğu qədim yurd yerimiz yüzillərboyu Azərbaycan dövlətçilik ənənələrinin yaşadıldığı dayaq mərkəzi, milli birliyin, həmrəyliyin dəyişməz ünvanı kimi tarixdə öz yerini almışdır. 1990-1993-cü illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin xilaskarlıq missiyasını, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesini məhz Naxçıvandan başlaması da, bu mənada, taleyin hökmü idi.

Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir: ***"Tale ulu öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı..."***

O illəri xatırlayanda qədim diyarın böyük xilaskara, xilaskarlıq missiyasını həyata keçirəcək dahi şəxsiyyətin isə Onu sevən, ətrafında sıx birləşərək müqəddəs amallara çatmaq üçün hər cür çətinliyə səbir edən, durmadan çalışan sədaqətli insanlara ehtiyacı olduğunu görmək heç də çətin deyil. Elə bir dövr yaşanmaqda idi ki, qədim Oğuz yurdunu təhlükələrdən xilas etmək, onu qorumaq, bütün istiqamətlər üzrə müstəqil dövlət quruculuğu kimi taleyüklü əhəmiyyətə malik mühüm bir prosesin inamla aparıldığı siyasi-ideoloji mərkəzə çevirmək lazım idi. Çünki ötən əsrin 80-ci illərinin sonlarında muxtar respublikanın sərhədyanı kəndləri erməni yaraqlıları tərəfindən hücuma məruz qalmış, dincliyi əlindən alınmışdı. Blokadaya salınan Naxçıvanda iqtisadi və siyasi böhran daha da dərinləşməkdə idi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin belə bir dövrdə – 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, 2 gün sonra isə muxtar respublikaya qayıdışı naxçıvanlılara böyük ümid və sevinc bəxş etdi. Bu qayıdış insanların Azərbaycanın bütün bəlalardan xilas olacağına ümidlərini artırdı. Zəngin dövlətçilik təcrübəsinə malik olan qüdrətli şəxsiyyətin, ömrünü Vətəninə, xalqına həsr edən əvəzedilməz liderin doğulub boya-başa çatdığı diyara qayıdışı əhali tərəfindən sevinclə qarşılandı. Naxçıvanlılar əmin idilər ki, bu yurdu yalnız ulu öndər xilas edə bilər. Məhz elə bu səbəbdən o dövrün mətbuatı yazırdı ki, əzablı və məşəqqətli günlərini yaşayan Naxçıvanı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü Tanrı dahi və müdrik insanı öz doğma yurduna xilaskar göndərmişdi. Gəldi və öz xilaskarlıq missiyasını uğurla yerinə yetirdi.

Ulu öndər sonralar bu barədə deyəcəkdi: ***"1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma, eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş".***

Naxçıvana gəldikdən qısa müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq görkəmli dövlət xadimi Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürərək muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz ümummilli liderimizin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Ulu öndər 340 nömrəli Nehrəm Seçki Dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli Seçki Dairəsindən isə Naxçıvan parlamentinə deputat seçildi. 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası görkəmli dövlət xadiminin sədrliyi ilə öz işinə başladı. Həmin sessiyada "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul edildi. Sessiya Naxçıvan MSSR adından "Sovet", "Sosialist" sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu. O dövrdə belə cəsarətli addımları, ancaq ulu öndər kimi dahi bir şəxsiyyət ata bilərdi.

O ağır, məşəqqətli günlərdə naxçıvanlılar ulu öndərə böyük sevgi və ehtiram bəsləyərək dünya şöhrətli siyasətçinin doğma diyarımıza rəhbərlik etməsini arzulayırdılar. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən fövqəladə sessiyasında deputatların və iclas keçirilən binanın qarşısına toplaşan minlərlə insanın təkidi ilə ümummilli lider Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da Azərbaycan tarixində ulu öndərin adı ilə bağlı olan daha bir möhtəşəm səhifə açıldı. Sessiyadakı ilk çıxışında dahi şəxsiyyət öz taleyini xalqa tapşırdığını bildirərək demişdir: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Ümummilli lider Heydər Əliyev Ali Məclisin Sədri kimi siyasi fəaliyyət göstərdiyi dövrdə mahiyyət və miqyasına görə əsrlərə bərabər işlər gördü, "Hakimiyyət xalq üçündür!" prinsipini reallığa çevirdi. Görkəmli dövlət xadimi real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başladı. 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etdi. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıcı idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olundu, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ümummilli liderə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradıldı, Naxçıvanın müdafiə potensialı gücləndirildi, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası Naxçıvanda qoyuldu.

Həmin dövr elə bir dövr idi ki, Azərbaycan xalqının birliyinə nail olmadan və bu həmrəyliyi sağlam ideologiya əsasında yaratmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. Məhz buna görə də ulu öndər Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səslədi. Bu baxımdan 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Bununla da 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olundu. Həmçinin 20 Yanvar faciəsinə, Xocalı soyqırımına siyasi qiymət verilməsi tələbi də ulu öndər Heydər Əliyev tərəfindən gündəmə gətirildi.

Həmişə xalqımıza qarşı təcavüzkar mövqedə dayanan Ermənistanın blokadaya saldığı, mərkəzi hakimiyyətin isə biganə münasibət göstərdiyi Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılmalı, blokadanın vurduğu ciddi zərbələrin

*Ardı 2-ci səhifədə*

qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilməli idi. Bu məsələni, xüsusilə diqqətdə saxlayan görkəmli dövlət xadimi Heydər Əliyev 1992-ci ildə qonşu İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərlər etdi, bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalandı. Həmin protokollara əsasən hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər quruldu, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verildi, Sədərək və Culfa gömrük-keçid məntəqələri yaradıldı. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları fəaliyyətə başladı. Ümummilli liderimizin Naxçıvanın xilası, müstəqil dövlətçilik naminə həyata keçirdiyi islahatlar, gördüyü işlər ozamankı Azərbaycan iqtidarı tərəfindən qısqanclıqla qarşılanırdı. Bütün bunlar bir məqsədə – Heydər Əliyev ideyalarının, xilaskarlıq missiyasının qarşısını almağa xidmət edirdi. Lakin buna nail olmaq mümkün deyildi. Ona görə ki, bütün Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsinə, qələbəsinə inanır, öz nicatını yalnız bu yolda görürdü.

Qədim diyarımızda iqtisadi inkişafın aparıcı sahələrindən olan kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də həmin illərdə diqqət mərkəzində idi. Ulu öndərin təşəbbüsü ilə Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edildi. Həmin qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amilə çevrildi, Azərbaycanda torpaq islahatına məhz Naxçıvandan başlanıldı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov o dövrdə Naxçıvanda iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərkən demişdir: ***"Bu dövrdə müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırılmış, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edilmiş, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülmüşdü. Qonşu Türkiyə və İranla iqtisadi, mədəni, humanitar əlaqələr yaradılmışdı. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın Heydər Əliyev yoluna qayıdan ilk region olmaqla, Azərbaycanda böyük nümunə gücünə malik idi".***

Bütün Azərbaycanın güvəncinə çevrilən ümummilli liderimizə 1992-ci ilin 16 oktyabrında ölkə ziyalıları "Azərbaycan sizi gözləyir" adlı tarixi müraciət etdilər. Xalqın istək və arzularının, son ümidlərinin ifadəsi olan bu müraciətə ümummilli lider Heydər Əliyev həmin ayın 24-də mətbuatda dərc olunmuş "Yeni, müstəqil Azərbaycan uğrunda" sərlövhəli cavab məktubunda deyirdi: ***"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".*** Azərbaycanın müxtəlif bölgələrindən Naxçıvana gələn 550-dən artıq nümayəndənin iştirakı ilə 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Blokada çətinlikləri şəraitində yaşayan Naxçıvanda təməli qoyulan bu partiya hazırda öz sıralarında milli ruhlu insanları birləşdirən, müstəqillik, dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətənpərvərlik ideyalarına mənsub olan kütləvi siyasi təşkilata çevrilmişdir.

Onu da xüsusi vurğulayaq ki, ümummilli liderin Naxçıvana qayıtması, Ali Məclisin Sədri seçilməsi və bu vəzifədəki səmərəli fəaliyyəti təkcə muxtar respublikada yox, bütövlükdə, Azərbaycan miqyasında parlaq gələcəyə olan inam hissini alovlandırmışdı. Ölkəmizin digər regionlarında yaşayan insanlar xalqımızın böyük oğlu Heydər Əliyevə teleqramlar, məktublar göndərir, xalqın üzləşdiyi bəlaların məhz onun müdrik və uzaqgörən siyasəti nəticəsində həll olunacağına inamlarını ifadə edirdilər. Xalqın böyük inam və sevgisinin əyani ifadəsi olan bu məktublarda, teleqramlarda o zaman Azərbaycanı "idarə edənlərin" özbaşınalıqlarından, siyasi səriştəsizliklərindən, xalqın dərdinə şərik çıxmamalarından bəhs olunurdu. Görkəmli dövlət xadimi təkcə Naxçıvanda yox, Azərbaycanın digər regionlarında yaşayan həmvətənlərimizin də dərdlərinə şərik olmuş, onların problemlərinin həllinə çalışmış və buna nail ola bilmişdir.

1993-cü ildə Azərbaycan xaosa sürükləndiyi, parçalanma, yox olma təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə xalqımız milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün görkəmli dövlət xadimi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Xalqın davamlı çağırışlarını nəzərə alan dahi öndərin Naxçıvandan Bakıya qayıdışı xalqımızın çoxəsrlik tarixinə möhtəşəm hadisə kimi daxil oldu. 15 iyun 1993-cü il Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi həkk edildi. Ulu öndər qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmləndi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda həyata keçirilmiş tədbirlər kimi tarixə düşmüş, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmlənmiş, bütün sahələrdə böyük uğurlar qazanılmışdır. Ötən illər bir daha təsdiq etdi ki, Azərbaycanın nicatı və tərəqqisi məhz ulu öndər Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır və bu yol əbədidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən danışarkən demişdir: ***"Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".***

Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi xəttin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində azadlıq və müstəqilliyimiz daimi və əbədi olmuşdur. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır. Elə ötən ilin sentyabr ayının 27-də başlayan, 44 gün davam edən və dövlətimizin, dövlətçiliyimizin tarixinə böyük Qələbə kimi yazılan ərazi uğrunda mücadilə də göstərdi ki, bu gün ulu öndərin xilaskarlıq missiyasından başlanan yolu Onun siyasi varisi ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Görkəmli dövlət xadiminin uzun illər üçün müəyyənləşdirilmiş ideyaları Naxçıvanda da yeni inkişaf erasının başlanmasına rəvac verdi, bu siyasətin uğurlu davamı nəticəsində əsl tərəqqiyə nail olundu. Ümummilli lider Heydər Əliyev tərəfindən dövlət müstəqilliyimizin əsasının Naxçıvanda qoyulması qədim diyarda tarixən mövcud olmuş zəngin dövlətçilik ənənələrinin davamı kimi də təqdirəlayiqdir. Onun 1990-cı il iyulun 22-də Naxçıvan Muxtar Respublikasına qayıdışı və buradakı fəaliyyəti 70 illik imperiya əsarətinə son qoyan Azərbaycanın qurtuluş və müstəqillik tarixində mühüm mərhələdir. Bu tarixdən ötən 31 il ərzində ölkəmizin siyasi, iqtisadi, mədəni və digər sahələrdə qazandığı uğurlar Heydər Əliyev siyasi xəttinin, fenomenal fəaliyyətinin, Azərbaycanı Azərbaycana qaytarmaq missiyasının təntənəsidir. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev həyatda nə əldə edibsə, öz biliyi, bacarığı, zəkası və fədakarlığı nəticəsində əldə edib və bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib. Məhz onun rəhbərliyi ilə Azərbaycan 1970-ci illərdə ayağa qalxdı, ən geridə qalmış müttəfiq sovet respublikasından ən qabaqcıl respublikaya ucaldı... Heydər Əliyev nəinki Azərbaycan hüdudları çərçivəsində, dünya miqyasında böyük hörmət qazanmış və müstəsna xidmətləri olmuş şəxsiyyətdir".***

**"Şərq qapısı"**

## Naxçıvanda Qurban bayramı qeyd edilib

Dünya müsəlmanlarının mənəvi birlik, xeyirxahlıq, dözümlülük və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı Tanrının bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarındandır. Qurban bayramı yüksək insani keyfiyyətlərdən olan mərhəmətin və paylaşmağın, həmrəyliyin təlqin edilməsi üçün gözəl fürsətdir. Bu müqəddəs gündə qurban kəsmək və paylamaq bayramın fəzilətlərindən biri kimi yüksək mənəvi dəyərə malikdir.

Qurban bayramı muxtar respublikada qeyd edilib, məscidlərdə bayram namazı qılınıb, qurban əti paylanılıb.

Həmin gün Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarında da sağlamlıq imkanları məhdud şəxslərə, aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan ailələrə, şəhid ailələrinə və qazilərə, Naxçıvan Hərbi Hospitalına, muxtar respublikada təhsil alan əcnəbi tələbələrə, Ağciyər Xəstəlikləri və Psixi Xəstəliklər dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə olunanlara, "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin kollektivlərinə, ümumilikdə, 5 mindən artıq bayram payı verilib.

**"Şərq qapısı"**

## Xeyirxahlığın, insanpərvərliyin və bərabərliyin rəmzi – *Qurban bayramı*

*Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət edib və etməkdədir.*

"Qurban" sözü lüğəvi mənada "yaxınlaşmaq" deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanlar ruhi dəyərlərin paklanmasında, insanların xeyirxah əməllər ətrafında birləşməsində mühüm rol oynayır. Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir. Bu bayram, eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin də bir hissəsidir. Bütün müsəlman aləmində hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. Üç səmavi dinin – yəhudilik, xristianlıq və İslamın hər üçündə də müxtəlif formada qurbanlıq kəsmə ayini mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, qüdrətinə dərin inam və iman işığı durur.

Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir. Yüksək insani keyfiyyətlərdən olan dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınmışdır. "Qurani-Kərim"in "Kövsər" surəsində deyilir: *"Rəbbin üçün namaz qıl və qurban kəs de ki: Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi-Allah üçündür, biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər"*. Bundan əlavə, Peyğəmbərimiz (s.ə.s) buyurmuşdur ki, *"Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir"*.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir. Milli-mənəvi dəyərlərə və ənənələrə ehtiramla yanaşan Azərbaycanda Qurban bayramı da hər il böyük təntənə ilə qeyd olunur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu müqəddəs bayramı yüksək qiymətləndirərək demişdir: ***"Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir".***



Ölkəmizdə rəsmi olaraq iki gün qeyd olunan bu dostluq, qardaşlıq bayramının özünəməxsus qurban kəsmək şərtlərinə görə qurban kəsən şəxs müsəlman olmalıdır. Qurban ibadəti qurbanlıq heyvanın Qurban bayramı günlərində qayda-qanunlara uyğun şəkildə şəxsən qurban sahibinin özü tərəfindən kəsilməsi və ya başqasına kəsdirməsi ilə yerinə yetirilmiş olur. Qurban üzrlü səbəbdən bayram günü kəsilməzsə, bayramın ikinci, üçüncü günü də kəsilə bilər. Ancaq unutmayaq ki, bu ayini günün birinci yarısı, yəni gün dönməzdən əvvəl yerinə yetirmək lazımdır.

Qurban kəsmək azad və varlı müsəlmanlara vacibdir. Fitrə verməyə məcbur olan kimsə qurban kəsər. Qaldığı evdən başqa bir evi olan kimsə də qurban kəsməlidir. Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib onun ətini imkansızlara, kasıblara paylamalıdır. Burada əsas məqsəd dindarlığa nail olmaqdır. Quranda yazılıb: *"Kəsdiyiniz qurbanlardan Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır"*.

Səfərdə olanlara qurban kəsmək vacib deyildir. Nisab miqdarı malı olmayanların kəsdikləri qurban nafilədir. Bəzi məzhəblərə görə, qurban kəsmək üçün ağıl və həddi-büluğa çatmaq şərt deyildir. Beləliklə, varlı olan uşağın malından valideynin qurban kəsməsi lazımdır. Kasıb, imkanı olmayan ailələrin qurban kəsməsi vacib deyil. Bu yalnız buna imkanı olan adamların boynunda haqdır. Qurban əti satılmaz və ya satın alınmaz. Qurban yalnız paylanmaq üçün kəsilər ki, bu paylamanın da şərtləri vardır. Belə ki, kəsilmiş qurban üç yerə bölünür. Həmin üç hissənin biri ehtiyacı olan qonşulara, bir hissəsi qohum-əqrəbaya paylanılır, digər bir hissəsi isə evdə saxlanılır. Quşlardan və ov heyvanlarından qurban kəsmək doğru deyil. Qurban kəsmək ibadəti həm də insanlara sərvətini ehtiyacı olanlarla paylaşmaq əxlaqını qazandırır.

Övlad ailəyə Uca Allahın ən gözəl, ən yaxşı və ən böyük hədiyyəsidir. Buna görə də övlad sahibi olan ailə bu məqsədlə bir qurban kəsər ki, buna "Akika" deyilir. Bu qurban doğuşdan başlayaraq həddi-büluğa çatana qədər hər hansı bir zamanda kəsilə bilər, ən münasib olan doğuşun həftəsində, yəni yeddinci günü kəsməkdir. Əqiqə qurbanını sahibi də yeyə bilər.

Hər hansı bir işin həyata keçəcəyi təqdirdə qurban kəsəcəyini niyyət edən şəxsin bu məqsədlə kəsdiyi qurbana "Niyyət qurbanı" deyilir. Niyyət qurbanını yerinə gətirmək vacibdir. Niyyət qurbanından sahibi yeyə bilmədiyi kimi, onun qohumları da – atası, anası, babaları, uşaqları və nəvələri də yeyə bilməz. Bunun mənası budur: niyyət qurbanı tamamilə kasıbların haqqıdır.

Qurban bayramının ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Qurban kəsmək və onu paylaşmaq sosial bərabərliyə ən gözəl nümunələrdən biridir. Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır. Dinimizin təlqin etdiyi ədalət prinsipləri də bu bayramda özünü göstərir. Qurban bayramı insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı bizim hamımız – cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir. Məhz birliyimiz, həmrəyliyimiz düşmənlərimizi məğlubiyyətə uğradır, böyük qələbəmizi təmin edir.

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru***

# Muxtar respublikada müasir və demokratik mətbuat formalaşdırılır

146 il bundan əvvəl, iyulun 22-də görkəmli maarifpərvər ziyalı Həsən bəy Zərdabi tərəfindən milli mətbuatımızın əsasının qoyulması milli şüurun təşəkkülünə, nadanlıq və cəhalətə qarşı mübarizənin güclənməsinə, mədəniyyətimizə sahib çıxmağa, milli əqidəmizin təkamülünə rəvac vermişdir. XX əsrin əvvəllərində mətbuat orqanları Azərbaycanda milli azadlıq ideyalarının əsas istiqamətverici qüvvəsini təşkil etmişdir. Lakin ötən əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanın zorla sovetləşdirilməsi ilə milli mətbuatımız da sovet imperiyasının siyasi-ideoloji nəzarəti altında fəaliyyət göstərmişdir. Yalnız görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra milli demokratik mətbuatın başlıca prinsipləri formalaşmağa başlamışdır. Ümummilli lider demokratik ruhlu rəhbər kimi mətbuata müsahibəsində bu və digər nöqsanları qeyd edir, sovet cəmiyyətinin eybəcərliklərini açıq şəkildə deməkdən çəkinmirdi.

Çoxəsrlik tarixə və zəngin ənənələrə malik milli mətbuatımızın müstəqillik illərindəki inkişafı bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan jurnalistikası söz, fikir, mətbuat azadlığına məhz ulu öndərin zəngin dövlətçilik təcrübəsi sayəsində nail olub. Görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkədə mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qabaqcıl ictimai fikrin, milli məfkurənin inkişafında, müstəqil dövlət quruculuğunda mühüm rol oynayan kütləvi informasiya vasitələrinin cəmiyyətdə ictimai nüfuzunun artması, fəaliyyət dairəsinin genişlənməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görüldü. Bu sahədə möhkəm qanunvericilik bazasının yaradılması mətbuatın inkişafında ciddi dönüşə səbəb oldu. ***“Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və mətbuat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir”***, – deyən ümummilli liderin uzaqgörənliyi sayəsində ölkə mətbuatında söz, fikir və əqidə azadlığının təmin olunması üçün müvafiq qanunvericilik aktlarında dəyişikliklər aparıldı, ölkəmiz mövcud olan beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu. Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların söz, məlumat toplamaq, öz rəyini sərbəst ifadə etmək, yaradıcılıq azadlıqları təsbit olundu. Ulu öndərin “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzuranın ləğv edilməsi olduqca cəsarətli, prinsipial addım idi.

Bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Mətbu nəşrlərin sərbəst fəaliyyəti üçün bütün imkanlar yaradılmışdır. Azərbaycan milli mətbuatının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif olunması, onlara fəxri adlar verilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə dövlətin yüksək qiymətinin təcəssümüdür. Ölkə başçısı cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında”, eləcə də “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında” sərəncamları mətbuata göstərilən dövlət qayğısının davamı kimi mühüm əhəmiyyət daşıyır. Dövlət başçısının 2021-ci il 12 yanvar tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında Medianın İnkişafı Agentliyi yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 29 mart tarixli “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” Sərəncamı muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyətini genişləndirmiş, mətbuatın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. 2010-cu ildə




“Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması qəzetlərin günün tələblərinə uyğun nəşrinə şərait yaratmışdır. Muxtar respublikada bütün qəzet və jurnallar bu gün yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə mətbuat sahəsində çalışanların əməkhaqları artırılmış, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülmüşlər. Hazırda muxtar respublikada “Şərq qapısı” ilə yanaşı, 8 şəhər və rayon qəzeti, Universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır.

Sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyar haqqında məlumatların daha operativ çatdırılmasına imkan verir.

Ali Məclis Sədrinin mətbuat orqanlarına olan hərtərəfli qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilmiş, yaradıcılıq imkanları artırılmışdır. Görülən işlərin davamı kimi, 2018-ci ildə “Şərq qapısı”, şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınmışdır. Ötən 2 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə dövlət teleradiosuna yeni çəkiliş və efir avadanlıqları alınmışdır. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsi yaradılmışdır. Ali Məclis Sədrinin 2021-ci il 17 mart tarixli Fərmanı ilə isə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əsasında “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır ki, bu da televiziya və radio fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsində yeni mərhələnin başlanmasına imkan vermişdir.

Bu gün “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən “Naxçıvanın səsi” radiosu və “Kanal 35” Televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Cəmiyyətin 2016-cı ildə saytı istifadəyə verilmiş və televiziya internet üzərindən yayıma başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən “Nuhçıxan” İnformasiya Agentliyi yaradılmış, agentliyin saytı hazırlanmışdır. Hazırda “Nuhçıxan” İnformasiya Agentliyi muxtar respublika ilə bağlı ən mühüm informasiya, təhlil və analitik məqalələri, foto və videoinformasiyaları dünyaya çatdırır. Bununla bərabər, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Artıq “Kanal 35” Televiziyası və “Naxçıvanın səsi” radiosu bu ilin əvvəlindən etibarən təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir.

Naxçıvan Mətbuat Şurasının 2019-cu ildən etibarən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması isə Naxçıvan mediasının beynəlxalq müstəviyə çıxarılma səviyyəsini təsdiqləyir, eyni zamanda bu sahədə əlaqələrin genişlənməsinə də zəmin yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələr təsis olunmuşdur. Bununla da dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur.

İnsanların informasiya əldə etmək hüququnun təmin olunması sahəsində, informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada internet şəbəkəsinin əhatə dairəsini xeyli genişləndirmişdir. Artıq ən ucqar kəndlərdə belə, genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. Sürətli internetdən istifadə imkanları nəticəsində bir zamanlar informasiya blokadasına salınan Naxçıvan bu gün dünyanın hər yerində tanınır. Həmçinin hər il onlarla xarici jurnalist Naxçıvanda olur, qədim diyarla bağlı silsilə yazı və verilişlər hazırlayırlar. Bütün bunlar muxtar respublikada söz və mətbuat azadlığının, demokratik prinsiplərin bərqərar olmasına, kütləvi informasiya vasitələrinin fəaliyyətinə göstərilən dövlət qayğısının bəhrələridir.

Sürətli internet təminatı sosial şəbəkələrdən sərbəst istifadəyə imkan verir, bu isə həm də muxtar respublikanın tarixi, mədəniyyəti, turizm potensialı və müasir inkişafı haqqında təbliğat işinin aparılmasına şərait yaradır.

Jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası fəaliyyət göstərir ki, burada təhsil alan tələbələrin gənc jurnalist kimi yetişməsi üçün hər cür şərait var. Belə ki, ali təhsil ocağının Media mərkəzində fəaliyyət göstərən Universitet televiziyası və “Nuhçıxan” radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə də yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Ali Məclis Sədrinin bu sahəyə göstərdiyi qayğı sayəsində Universitet televiziyası 2021-ci il fevralın 24-dən etibarən artıq muxtar respublika ərazisində yayıma başlayıb. Həmçinin muxtar respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələri Jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin hamisi rolunda çıxış etməklə, onların peşəkar inkişafında mühüm rol oynayır.

“Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanlarına işə qəbul Qaydaları”nın təsdiq edilməsi ilə media orqanlarında işə qəbul Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müsabiqə yolu ilə həyata keçirilməsi isə peşəkar kadr hazırlığı işinə mühüm töhfədir.

Muxtar respublikanın tarixi inkişaf yolunun güzgüsünə çevrilən mətbu orqan “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması və bu Sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Tədbirlər Planına əsasən “Şərq qapısı” qəzeti və Naxçıvanda mətbuatın inkişafı” mövzusunda elmi konfransın, yubileylə bağlı yaradıcılıq müsabiqəsinin keçirilməsi, kitabın nəşrə hazırlanması və digər tədbirlər muxtar respublikamızın mətbuat tarixinin müasir milli və bəşəri ideyalar müstəvisində yenidən araşdırılıb öyrənilməsinə öz töhfəsini verəcəkdir. Sərəncamda deyilir: *“1921-ci il noyabrın 9-da nəşrə başlayan qəzet Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamışdır. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə qəzetin böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, 50 illik yubileyi qeyd olunmuşdur. 1990-1993-cü illərdə isə “Şərq qapısı” qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuşdur”.*

Muxtar respublikanın media əməkdaşları hər il milli mətbuatımızın yaranması gününü yüksək əhvali-ruhiyyə ilə qeyd edirlər, bu əlamətdar hadisə ilə bağlı yaradıcılıq müsabiqələri keçirilir, qələm sahiblərinin əməyi qiymətləndirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən il milli mətbuatımızın 145 illik yubileyində jurnalistlərlə keçirilən görüşdə demişdir: ***“Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir. Bu gün dünyada mövcud olan muxtar qurumların mətbuat sahəsinə nəzər saldıqda, müqayisə etdikdə bir daha aydın olur ki, muxtariyyət statusu bizdən daha çox olanlarda belə, Naxçıvandakı qədər mətbuata qayğı göstərilmir, şərait yaradılmır. Bu da bizi qürurlandırır ki, muxtar respublikamızda vətənpərvər jurnalistlər ordusu formalaşıb. Televiziya, qəzet və digər media qurumları yaratmaq işin bir tərəfidir. Amma əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır”.***

*İnamlı inkişaf yolunda əmin addımlarla irəliləyən muxtar respublika mətbuatı Ali Məclis Sədrinin verdiyi dəyərli tövsiyə və tapşırıqları, müəyyənləşdirdiyi fəaliyyət prinsiplərini rəhbər tutaraq bundan sonra da müstəqil dövlət quruculuğu, dövlətçilik, vətənpərvərlik, maarifləndirmək uğrunda yorulmaz fəaliyyət göstərəcək.*

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzində, digər dövlət qurumlarında, dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 22 iyul-23 avqust 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin “Naxçıvanbank” ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin, Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün esse imtahanı və müsahibə keçiriləcəkdir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər. Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| 1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzi | | | | |
| 261103 | Vətəndaşların qəbulu işinin təşkili sektoru | 2 | 6 | baş məsləhətçi |
| 261104 | Vətəndaşların qəbulu işinin təşkili sektoru | 2 | 6 | böyük məsləhətçi |
| 261105 | Vətəndaşların qəbulu işinin təşkili sektoru | 2 | 6 | aparıcı məsləhətçi |
| 261203 | Vətəndaşların hüquqlarının təminatı sektoru | 2 | 6 | baş məsləhətçi |
| 261204 | Vətəndaşların hüquqlarının təminatı sektoru | 2 | 6 | böyük məsləhətçi |
| 261303 | İnformasiya texnologiyalarının təminatı sektoru. Proqram təminatı üzrə | 1 | 6 | baş məsləhətçi |
| 261403 | Uçot və səyyar xidmətin təşkili sektoru | 1 | 6 | baş məsləhətçi-mühasib |
| 261413 | Uçot və səyyar xidmətin təşkili sektoru | 3 | 6 | baş məsləhətçi |
| 261404 | Uçot və səyyar xidmətin təşkili sektoru | 2 | 6 | böyük məsləhətçi |
| Cəmi: | | 17 | | |

| | | | | |
|---|---|---|---|---|
| | **2. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi** | | | |
| 311013 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi | 1 | 7 | baş məsləhətçi - hüquqşünas |
| 311023 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi, lisenziyaların verilməsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 311113 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Layihə, ekspertiza və geoloji işlərin əlaqələndirilməsi sektoru | 1 | 7 | baş məsləhətçi |
| 311123 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Tikinti müfəttişliyi (sektor səlahiyyətli) | 1 | 7 | baş məsləhətçi |
| 311133 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Dövlət ekspertiza mərkəzi (sektor səlahiyyətli) | 3 | 7 | baş məsləhətçi |
| 311146 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Mühəndis-geoloji, beton və sement laboratoriyası (sektor səlahiyyətli) | 1 | 7 | məsləhətçi |
| 311203 | Xüsusi Riskli Xilasetmə Xidməti. Silah və texniki avadanlıq bölməsi | 1 | 7 | baş məsləhətçi |
| | **Cəmi:** | **9** | | |
| | **3. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| 200023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 209403 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| 206406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Kəngərli rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| | **4. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| | **4.1. Dövlət Sosial Təminat Xidməti** | | | |
| 219036 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 217013 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 2 | 7 | baş məsləhətçi |
| 217036 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| | **4.2. Dövlət Məşğulluq Agentliyi** | | | |
| 219003 | Şərur Rayon Məşğulluq Mərkəzi | 1 | | baş mütəxəssis |
| 212003 | Babək Rayon Məşğulluq Mərkəzi | 1 | | baş mütəxəssis |
| 214003 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | | baş mütəxəssis |
| 215003 | Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | | baş mütəxəssis |
| | **4.3. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi** | | | |
| 210113 | Tibbi-sosial ekspertiza sektoru | 1 | | baş mütəxəssis |
| 210114 | Tibbi-sosial ekspertiza sektoru | 1 | | böyük mütəxəssis |
| 210123 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | | baş mütəxəssis |
| | **Cəmi:** | **11** | | |
| | **5. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | |
| 229016 | Şərur Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 223016 | Culfa Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 225016 | Şahbuz Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 227016 | Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **4** | | |
| | **6. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | |
| 244203 | Ordubad Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş məsləhətçi |
| 245103 | Şahbuz Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **7. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi** | | | |
| 258007 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 259007 | Şərur Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 252007 | Babək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 254016 | Ordubad Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 253007 | Culfa Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 253016 | Culfa Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 255007 | Şahbuz Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 255016 | Şahbuz Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 257007 | Sədərək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **9** | | |
| | **8. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | |
| 290023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 299107 | Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 292107 | Babək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 294107 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 293107 | Culfa Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297107 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297125 | Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 297106 | Sədərək Rayon Təhsil Şöbəsi. Kadr üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **8** | | |
| | **9. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi** | | | |
| | **9.1. Şərur Rayon Statistika İdarəsi** | | | |
| 399574 | Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399214 | Düdəngə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399494 | Maxta kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399584 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399484 | Tumaslı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399114 | Yengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399555 | Çəmənli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399535 | Çərçiboğan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399395 | Dərəkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399215 | Düdəngə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399265 | Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399135 | Xələc kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399385 | Yuxarı Daşarx kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399275 | Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399546 | Arbatan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399526 | Dərvişlər kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399626 | Tənənəm kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399616 | Yeni Havuş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **9.2. Babək Rayon Statistika İdarəsi** | | | |
| 392007 | Aparat | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 392224 | Qahab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392234 | Sirab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392174 | Şıxmahmud kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392264 | Zeynəddin kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392376 | Göynük kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **9.3. Ordubad Rayon Statistika İdarəsi** | | | |
| 394145 | Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394255 | Aza kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394265 | Azadkənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394325 | Biləv kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394115 | Gənzə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394275 | Sabirkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394235 | Unus kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394165 | Yuxarı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394135 | Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394386 | Parağaçay qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394126 | Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394346 | Bist kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394316 | Çənnəb kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394296 | Düylün kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394376 | Gilançay kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394366 | Xurs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394356 | Nəsirvaz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **9.4. Kəngərli Rayon Statistika İdarəsi** | | | |
| 396006 | Statistika və təhlil şöbəsi | 1 | 7 | məsləhətçi |
| 396103 | Qıvraq qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 396133 | Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 396154 | Xok kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 396115 | Qabıllı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 396185 | Xıncab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 396166 | Yeni Kərki kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **9.5. Şahbuz Rayon Statistika İdarəsi** | | | |
| 395006 | Statistika və təhlil şöbəsi | 1 | 7 | məsləhətçi |
| 395225 | Şahbuzkənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395276 | Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395156 | Güney Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395136 | Nursu kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395316 | Şada kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395186 | Yuxarı Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **9.6. Sədərək Rayon Statistika İdarəsi** | | | |
| 397133 | Dəmirçi kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 397114 | Sədərək kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **57** | | |
| | **10. Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** | | | |
| 420023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **11. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti** | | | |
| 457006 | Sədərək Rayon Şöbəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **12. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu** | | | |
| 499605 | Şərur Rayon Şöbəsi. Sosial sığorta və fərdi uçot sektoru | 1 | | aparıcı mütəxəssis |
| 499805 | Şərur Rayon Şöbəsi. Pensiya təminatı sektoru | 3 | | aparıcı mütəxəssis |
| 499905 | Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 3 | | aparıcı mütəxəssis |
| 499906 | Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | | mütəxəssis |
| 492805 | Babək Rayon Şöbəsi. Pensiya təminatı sektoru | 1 | | aparıcı mütəxəssis |
| 492605 | Babək Rayon Şöbəsi. Sosial sığorta və fərdi uçot sektoru | 1 | | aparıcı mütəxəssis |
| 494805 | Ordubad Rayon Şöbəsi. Pensiya təminatı sektoru | 1 | | aparıcı mütəxəssis |
| 494905 | Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 3 | | aparıcı mütəxəssis |
| 494906 | Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | | mütəxəssis |
| 493905 | Culfa Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | | aparıcı mütəxəssis |
| 493906 | Culfa Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | | mütəxəssis |
| 496803 | Kəngərli Rayon Şöbəsi. Pensiya təminatı sektoru | 1 | | baş mütəxəssis |
| 496905 | Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | | aparıcı mütəxəssis |
| 495803 | Şahbuz Rayon Şöbəsi. Pensiya təminatı sektoru | 1 | | baş mütəxəssis |
| 495905 | Şahbuz Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 3 | | aparıcı mütəxəssis |
| 497603 | Sədərək Rayon Şöbəsi. Sosial sığorta və fərdi uçot sektoru | 1 | | baş mütəxəssis |
| 497803 | Sədərək Rayon Şöbəsi. Pensiya təminatı sektoru | 1 | | baş mütəxəssis |
| 497905 | Sədərək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | | aparıcı mütəxəssis |
| | **Cəmi:** | **28** | | |
| | **13. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti** | | | |
| 777023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | | böyük müvəkkil |
| | **Cəmi:** | **1** | | |
| | **14. Ordubad Rayon Məhkəməsi** | | | |
| 740106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **15. Sədərək Rayon Məhkəməsi** | | | |
| 770005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 770106 | Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **16. Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanları** | | | |
| 431102 | Naxçıvan Muxtar Respublikası "Televiziya və Radio Verilişləri Qapalı" Səhmdar Cəmiyyəti | 5 | | müxbir |
| 431202 | "Şərq qapısı" qəzeti | 3,5 | | müxbir |
| 431502 | Naxçıvan Şəhər İcra Hakimiyyətinin "Nuh yurdu" qəzeti | 2 | | müxbir |
| 431801 | Ordubad Rayon İcra Hakimiyyətinin "El həyatı" qəzeti | 1 | | redaktor |
| 432002 | Kəngərli Rayon İcra Hakimiyyətinin "Yeni həyat" qəzeti | 1 | | müxbir |
| 432102 | Şahbuz Rayon İcra Hakimiyyətinin "Oğuz səsi" qəzeti | 2 | | müxbir |
| 432203 | Sədərək Rayon İcra Hakimiyyətinin "Oğuz yurdu" qəzeti | 1 | | məsul katib |
| | **Cəmi:** | **15,5** | | |
| | **Yekun:** | **169,5** | | |


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 580